http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 14 (1611) 31 avqust 2015 - ci il Qiyməti 40 qəpik



## Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin II hissəsini və 109-cu maddəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alıram:**

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər 2015-ci il noyabrın 1-nə təyin edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 avqust 2015-ci il.

## BU SAYIMIZDA




Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki müvəqqəti işlər vəkili Azərbaycan Tibb Universitetinin qonağı olub 2



Tədris Cərrahiyyə klinikasında xəstəyə böyrək köçürüldü 3

MƏNALI İSTİRAHƏTİN ÜNVANI - «TƏBİB»




4-5-8

Mütəxəssis sözü

Varikozun ən müasir müalicə metodları Azərbaycanda 6

Tədris Cərrahiyyə Klinikasında üçəm dünyaya gəlib 2



ATU-nun Tədris-Cərrahiyyə Klinikasında qırtlaq-udlağın karsinoması olan xəstədə rekonstruktiv cərrahi əməliyyat həyata keçirilib



3

«Ən vacibi xəstəyə zaman qazandırmaqdır» 7

700 bal toplayan iki abituriyent Azərbaycan Tibb Universitetini seçib 3

# Birinci xanım Mehriban Əliyeva ad günü münasibətilə onu təbrik edənlərin hamısına minnətdarlığını bildirir



Hörmətli oxucular,
Əziz dostlar!

Ad günüm münasibətilə KİV-lər, sosial şəbəkələr, Azərbaycanın müxtəlif regionlarından və xarici ölkələrdən məktublar və teleqramlar vasitəsilə aldığım çoxsaylı təbriklər üçün hamınıza səmimi qəlbdən təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm. Mən sosial şəbəkələrin fəal olmayan istifadəçisiyəm. Amma mənə deyirlər ki, siz mənə nə qədər xeyirxah, xoş və səmimi arzular ünvanlamısınız. Hamınıza "Çox sağ olun" deyirəm! Mən məktublarınızdan çox böyük müsbət enerji aldım. Öz məhəbbətlərini belə sadə, gözəl və səmimi ifadə edən uşaqların təbrikləri məni çox mütəəssir etdi.

Mən sizin diqqətinizi yüksək qiymətləndirirəm və hər birinizə minnətdaram. Sizin arzularınızdan doğan hərarətə, hər bir sözünüzdə hiss etdiyim səmimiyyətə görə minnətdaram. Məhəbbətinizə və etimadınıza görə sağ olun.

Artıq uzun illərdir ki, mən həyatımın ən müxtəlif məqamlarında sizin dəstəyinizi hiss edirəm. Məhz siz və sizin mənə inamınız məni ruhlandırır və əlavə qüvvə verir.

Sözlərin və vədlərin müəyyən müddətdən sonra unudulmaq xüsusiyyəti var. Amma həyata keçirilən ideyaların nəticələri heç vaxt yaddan çıxmır. Sizin təbriklərinizi mənim fəaliyyətimə, mənim zəhmətimə ehtiramın əlaməti kimi dəyərləndirirəm.

Əziz dostlar!

Hər birinizə ayrılıqda cavab verməyə fiziki imkanım olmadığı üçün bir daha hamınıza xoş münasibətə görə dərin minnətdarlığımı bildirirəm. Hər birinizə, ailələrinizə, doğmalarınıza və yaxınlarınıza möhkəm cansağlığı və xoşbəxtlik, aydınlıq və məhəbbət arzu edirəm.

Məhəbbətlə,

Mehriban Əliyeva
27 avqust 2015-ci il

# Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki müvəqqəti işlər vəkili Azərbaycan Tibb Universitetinin qonağı olub

**Avqust ayının 25-də Əlcəzair Xalq Demokratik Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili cənab Abbes Benmoussat Azərbaycan Tibb Universitetini ziyarət edərək universitetin rektoru, akademik Əhliman Əmiraslanovla görüşüb.**



Akademik Ə.Əmiraslanov qonağı salamlayaraq, ona Azərbaycan Tibb Universiteti haqda ətraflı məlumat verib. Rektor Əlcəzair universitetləri ilə ATU arasında elm və təhsil sahələrində əlaqələrin qurulmasında maraqlı olduqlarını söyləyib.

Əlcəzair Respublikasının ölkəmizdəki müvəqqəti işlər vəkili vəzifəsinə yeni təyin olunan cənab Abbes Benmoussat ilk səfərini Tibb Universitetinə etdiyini deyib. Azərbaycan geniş əraziyə malik olmasa da, bu torpağın bəşəriyyətə bir çox dahi insan bəxş etdiyini söyləyən qonaq, akademik Ə.Əmiraslanovla şəxsi tanışlığından qürur duyduğunu söyləyib. Azərbaycanda bütün sahələrdə, o cümlədən tibb sahəsində gedən inkişafdan məmnunluğunu bildirən Abbes Benmoussat, iki dost ölkə arasında elm, təhsil və tibb sahəsindəki əlaqələrin daha da genişləndirilməsini, müxtəlif təhsil və elm müəssisələri arasında ikitərəfli əməkdaşlığın qurulmasının prioritet sahə olduğunu vurğulayıb. O, yaxın gələcəkdə ATU və Əlcəzair universitetləri arasında əlaqələrin qurulacağına dəstək olacağını söyləyib.

Öz növbəsində, akademik Ə.Əmiraslanov da dost ölkənin təhsil və müalicə müəssisələri ilə elmi, təcrübi və pedaqoji əməkdaşlığa hazır olduqlarını bildirib.

# Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanova

**Hörmətli Əhliman müəllim!**

Əhalinin sağlamlığının qorunması, tibbi yardımla təminatı istiqamətində Saatlı rayon sakinləri ilə görüşərək onların problem və qayğıları ilə maraqlanmağınız, müxtəlif vaxtlarda rayon sakinlərinə tibb yardım göstərmək məqsədilə Azərbaycan Tibb Universitetinin əməkdaşlarını, tibb sahəsində tanınmış elm adamlarını rayona ezam etməyiniz və eləcə də cərrahi əməliyyat və tibbi müayinə üçün bilavasitə Sizə müraciət edən rayon sakinlərinə göstərdiyiniz köməkliklərə görə Sizə rayon ictimaiyyəti adından dərin minnətdarlığımızı bildiririk.

Saatlı rayonunun yüzlərlə sakini rəhbərliyinizlə həyata keçirilən tibbi müayinə və cərrahi əməliyyatlardan şəfa tapmış, sağlam həyata qayıtmışdır. 2015- ci ilin may ayında bədbəxt hadisə nəticəsində öz sağlamlığını itirərək yataq xəstəsi olmuş, 1963-cü il təvəllüdlü, Saatlı rayon sakini Tağıyeva Sevinc Sarıbala qızı da müalicəsi ilə bağlı Sizə müraciətindən sonra cərrahi əməliyyat nəticəsində sağlam həyata qovuşmuşdur. Sizin zəngin təcrübə və bacarığınızdan, dəyərli məsləhətlərinizdən, göstərdiyiniz köməkliklərdən bəhrələnmiş xəstələr, onların doğmaları və yaxınları xeyirxah və nəcib işinizə görə öz razılıqlarını bildirmiş, müasir müalicə üsullarından faydalandıqlarını ifadə etmişlər.

Sizə və rəhbərlik etdiyiniz tibbi heyətə əhalinin sağlamlığının qorunması istiqamətində yüksək təşkilatçılıqla həyata keçirdiyiniz xeyirxah tədbirlərə, eyni zamanda böyük hörmət və rəğbətini qazandığınız seçicilərinizə göstərdiyiniz diqqət və qayğıya görə bir daha dərin təşəkkürümüzü bildirir, sağlam həyat naminə əvəzolunmaz işinizdə yeni- yeni uğurlar arzulayırıq.

**Hörmətlə: Siraqəddin Cabbarov,**
**Saatlı Rayonu İcra Hakimiyyətinin Başçısı**

# Tədris Cərrahiyyə Klinikasında üçəm dünyaya gəlib

**Bu yaxınlarda daha bir ailədə üçəm sevinci yaşanıb. Pərvanə Daşdiyeva Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında 2 qız və bir oğlan dünyaya gətirib.**



Tibb üzrə fəlsəfə doktoru, ATU-nun I Mama-ginekologiya kafedrasının assistenti Arzu İsmayılovanın sözlərinə görə, Pərvanə xanım hamiləliyi dövründə bir neçə dəfə Tədris Cərrahiyyə Klinikasına müraciət edib: "Hamiləlik zamanı vaxtından öncə doğuş riski olsa da, buna qarşı müvafiq müalicə aparılıb və nəticədə hamiləlik normal davam edib. Son aylarda ana tam nəzarətə götürülüb. Hamiləlik təxminən 36-cı həftədə sona çatdırılıb".

A.İsmayılovanın sözlərinə görə, üçəmlərin qeysəriyyə kəsiyi əməliyyatı ilə götürülməsi haqda qərar verilib. Çünki ilk gələn döl ayaqla, ikincisi başgəlişi, sonuncu döl isə çanaqgəlişi ilə gələcəkmiş. Buna görə uşaqların həyatını riskə atmamaqdan ötrü qeysəriyyə əməliyyatı aparılıb.

Hazırda pediatrımız Səadət Yaqubovanın nəzarətində olan uşaqların vəziyyəti normaldır. Qeyd edək ki, oğlan 2300 qr, qızlar isə 1750 və 2100 qr çəki ilə doğulublar.

Biz də ATU kollektivi adından ailəni təbrik edir, uşaqlara cansağlığı arzulayırıq.

**ATU-nun mətbuat xidməti**

# Tədris Cərrahiyyə klinikasında xəstəyə böyrək köçürüldü

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə klinikasında universitet tarixində ilk dəfə olaraq böyrək transplantasiyası əməliyyatı həyata keçirilmişdir.**

1989-cu il təvəllüdlü xroniki böyrək çatışmazlığından əziyyət çəkən və uzun müddətdir ki, hemodializ seansları alan xəstəyə anasından alınan böyrək köçürüldü. Övladına 2-ci dəfə həyat verən anadan - donordan böyrək alınma əməliyyatı Azərbaycanda ilk dəfə olaraq endoskopik (retroperitonoskopik) üsulla icra edilmişdir. Hal-hazırda donorun (ana) və xəstənin (oğul) ümumi vəziyyəti qənaətbəxşdir. Əməliyyatda ATU-nun I cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramovun başçılığı ilə klinikanın baş həkimi, dosent Asiman Həsənov, həkim-cərrah Ruslan Məmmədov, həkim-uroloq Fikrət Əhmədov, nefroloq Orxan Quliyev, anestezioloq Cavid Paşayev və digər tibb personalından ibarət heyət iştirak etmişdir. İstanbul Bilim Universitetinin professoru Barış Akın ATU-da icra edilən bu ilk orqan köçürülməsi əməliyyatında yaxından iştirak edərək dəstək olmuşdur.

ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov böyrək köçürülən xəstəyə və donora baş çəkərək onların vəziyyəti ilə yaxından tanış olmuş, hər ikisinə şəfa diləyərək tezliklə sağalıb yaxınlarına qovuşmalarını arzulamışdır.

Qeyd etmək lazımdır ki, əməliyyatın icra olunduğu ATU-nun Tədris Cərrahiyyə klinikası ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş və yüksək ixtisaslı mütəxəssislərin çalışdığı tibb müəssisəsidir.







## ATU-nun Tədris-Cərrahiyyə Klinikasında qırtlaq-udlağın karsinoması olan xəstədə rekonstruktiv cərrahi əməliyyat həyata keçirilib

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris-Cərrahiyyə Klinikasında Ağız və üz-çənə cərrahiyyəsi şöbəsinin müdiri Məhəmməd Davudov tərəfindən çox mürəkkəb bir əməliyyat həyata keçirildi.**



Məhəmməd Davudovun sözlərinə görə, qırtlaq-udlağın şişi deyərkən, söhbət, udlağın aşağı hissəsinin xərçəngindən, bədxassəli şişindən gedir: "Həmin nahiyyədə şiş aqressiv gedişə malik olur və boyun limfa düyünlərinə metastaz verir. Əməliyyat zamanı qırtlaq-udlaq tam götürülür, boyun limfa düyünləri tam şəkildə çıxarılır. Burada ikinci çox mühüm məsələ götürdüyümüz toxumaların, yəni həmin qüsurun rekonstruksiyasıdır, yəni bərpa olunmasıdır. Bu ona görə vacibdir ki, xəstənin qidalanması bərpa oluna bilsin".

Həkim M.Davudovun sözlərinə görə, bunün üçün bir çox üsullardan istifadə olunur: "Dünya praktikasında da udlağın rekonstruksiyası üçün bir çox flepplərdən istifadə olunur. Bunlardan biri də acı bağırsaqdan götürülmüş fleppdir. Xəstələr məhz belə rekonstruksiyadan sonra normal həyata daha rahat adaptasiya olunurlar".

Məhəmməd Davudov bildirdi ki, bu əməliyyat prosesi çox mürəkkəb olduğu üçün xaricdə olan həkimlərlə işbirliyi qurmaq qərarına gəldik: "Beləliklə də, təcrübə mübadiləsi aparmış oluruq. Tehran Tibb Elmləri Universitetinin estetik-plastik-rekonstruktiv cərrahı, dosent, doktor Həmid Rza Fəthini bu əməliyyat üçün klinikamıza dəvət etdim. Onunla birgə bu əməllyyatın icrasını uğurla həyata keçirdik".

## 700 bal toplayan iki abituriyent Azərbaycan Tibb Universitetini seçib

### Asya MAHMUDOVA: "Qazandığım nailiyyətlərə görə müəllimlərimə və valideynlərimə minnətdarlığımı bildirirəm"



**Asya MAHMUDOVA bu il qəbul imtahanlarında seçilməyi bacaran bir neçə gəncdən biridir. Zaqatalalı bu gənc IV qrup üzrə imtahanlarda ən yüksək nəticə - 700 bal toplayıb. İlkin seçimdə üstünlüyü Azərbaycanın ən iri ali təhsil ocağı olan Tibb Universitetinə verib.**

1996-cı ildə Zaqatala rayonunun Əliabad qəsəbəsində anadan olub. IV qrup üzrə 700 bal toplayan Asya Mahmudova 3 il Zaqataladakı "Modern" kurslarında bir neçə dəfə 700 bal toplayıb. O, orta məktəbi əla qiymətlərlə bitirib. Sənədlərini Tibb Universitetinin müalicə işi fakültəsinə verib. Arzusu tanınmış həkim olmaqdır.

Asya qazandığı nailiyyətlərə görə müəllimlərinə və valideynlərinə minnətdar olduğunu bildirir.

### Nurlan MƏCİDOV: «İlk sevincimi anamla, daha sonra sinif yoldaşlarım və müəllimlərimlə bölüşdüm»

**Bu il qəbul imtahanlarında 700 bal toplayaraq Azərbaycan Tibb Universitetini seçən abituriyentlərdən biri də Nurlan Məcidovdur.**

**İmtahanda ən yüksək nəticə göstərən Nurlan ATU-nun müalicə işi fakültəsinin tələbəsi olmağa üstünlük verib.**



Bakı Türk Anadolu liseyinin məzunudur. İlk təhsilini Bakıdakı 132 nömrəli tam orta məktəbdə alıb. Dördüncü sinifdə oxuyarkən Bakı üzrə "İlin şagirdi" seçilib. IV ixtisas qrupu üzrə "Zəka" kurslarında iki il hazırlaşıb. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təşkil etdiyi sınaq imtahanlarında 670-680 bal toplayıb. Yüksək bal toplayacağına inanıb. Nurlan imtahandan çıxanda yaxşı yazdığını bilib. Evə gəldikdən sonra düzgün cavabları yoxlayanda çox sevinib. İlk sevincini də anasıyla, daha sonra sinif yoldaşları və müəllimlərilə bölüşüb. Nurlan sənədlərini Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə verib. Çünki bacısı və qardaşı tibb sahəsi üzrə təhsil alırlar. Onlar təhsillərini Türkiyədə davam etdirirlər. O da gələcəkdə təhsilini xaricdə davam etdirmək arzusundadır.

**ATU-nun mətbuat xidməti**

# MƏNALI

**◆ Hər yay Azərbaycan Tibb Universitetinin Nabranda yerləşən istirahət düşərgəsinə ezam olunuruq. Əsas məqsədimiz buradakı şəraitlə oxucularımızı yaxından tanış etmək, istirahətin təşkili, əməkdaşlarımızın necə dincəlməsi barədə fikirlərimizi onlarla bölüşməkdir. Bu il də ənənəmizə sadiq qalaraq elə bu məqsədlə avqustun əvvəllərində Nabrana yollanırıq. Doğma Xəzərin sahili boyunca görməyə alışdığımız gözəl mənzərələri seyr edə-edə illərdir bizdən ötrü doğmalaşan məkana çatırıq. "Təbib" yazılan lövhənin qarşısından keçərək universitetimizə məxsus əraziyə daxil olduqda qürur qarışıq doğma bir hiss qəlbimizə hakim kəsilir. Düşərgənin mərkəzi sayılan "Çardağın altı"nda "nəfəsimizi dərdikdən" sonra sakinlərlə hal-əhval tuturuq. Bir az havadan-sudan, ordan-burdan danışıb söhbətin səmtini isti-isti bizə lazım olan istiqamətə yönəldirik. Yəni daha çox istirahətçilərin ürək sözlərini, arzu və təkliflərini dinləməyə üstünlük verir, onlardan necə istirahət etdiklərini soruşuruq.**



**Tibbi biologiya və genetika kafedrasının müdiri, professor Canbaxış Nəcəfov:** *Çox yüksək səviyyədə istirahət edirik. Hər il əməkdaşların istirahəti naminə böyük işlər görülür. Gündə 3 dəfə keyfiyyətli yeməklə təmin olunuruq. Malik müəllim səhərdən axşamadək istirahət düşərgəsinə ciddi nəzarət edir. Bura nə bir yad adam girir, nə balalarımıza artıq-əskik söz deyən var. Çimərlikdə də Azər müəllimin nəzarəti altında gün ərzində 2 dəfə çimir, dincəldiyimiz 15 gün müddətində yaxşı enerji toplayırıq ki, sentyabrda xoş ovqatla işimizə başlayaq.*

*Buranın ən gözəl cəhətlərindən biri meşə ilə dənizin bir-birilə qovuşmasıdır. Həm də bir-birimizi yaxşı tanıdığımızdan səmimi ünsiyyət qurur, nərd, domino, şahmat oynayırıq. Nabranda yerləşən digər ali məktəblərin istirahət mərkəzləri ilə "Təbib" istirahət düşərgəsini müqayisə etdikdə buranın bir sıra üstünlüklərini də açıq şəkildə görürük ki, bu da bizə yeni ruh, əlavə qol-qanad verir. Yüksək səviyyədə istirahət etməmiz üçün universitetimizin rektoru, akademik Əhliman Əmiraslanovun, Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımovun hər an diqqətini üzərimizdə hiss etmək də bizim üçün çox xoşdur.*

## "Burada neçə ildir istirahət etmədiyimə çox peşimanam"

**Farmokologiya kafedrasının dosenti Aydın Əliyev:** *Azərbaycan Tibb Universitetində 35 ildir işləməyimə baxmayaraq, "Təbib" istirahət düşərgəsinə ilk dəfədir ki, gəlirəm. Açığını deyim ki, bu müddət ərzində bura gəlmədiyimə görə çox peşimanam. Amma növbəti illərdə hər yay bura gəlməklə səhvimi düzəltməyə çalışacağam. Bir həkim kimi düşərgədə verilən qidaların keyfiyyətini də yüksək qiymətləndirirəm. Buradakı təmiz hava, saf su, günəş, torpaq, meşə təbiətin bir hissəsi olan insanın sağlamlığına müsbət təsir göstərir. Bir üstün cəhət də odur ki, burada dincələnlər doğma kollektivin üzvləridir. Düşərgə sakinləri arasındakı mehribanlıq, xoş ünsiyyət ürəyimcədir. Yaradılan şəraitə görə zəhməti olan hər kəsə təşəkkürümü bildirirəm.*





Ayrı-ayrılıqda bütün korpusları baş çəkərkən bir daha əmin olduq ki, rəhbərliyin "Təbib" düşərgəsində dincələn əməkdaşlara göstərdiyi qayğı Universitet Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun timsalında hər addımbaşı hiss edilir. O, vaxtaşırı düşərgədəki ümumi vəziyyətlə yerindəcə tanış olur, sakinlərin arzu və təkliflərinə uyğun olaraq onların rahat istirahəti, asudə vaxtlarını səmərəli keçirmələri üçün əlindən gələni əsirgəmir.

Bu qənaətimizdə yanılmadığımızı müsahiblərimiz fərdi söhbətlərində də təsdiqləyirlər.





## "Bir il bura gəlməsəm ölərəm"

**Pediatriya fakültəsi üzrə həmkarlar təşkilatının sədri, dosent Elmira Bunyadzadə:** *Düz 20 ildir ki, hər yay bura gəlirəm. Buranın gözəlliyini görmək üçün təbiətin fanatı olmaq lazımdır. Nabran Allahın Azərbaycana bağışladığı bir nemətdir. Nabranda da ən gözəl yer "Təbib" istirahət düşərgəsinin ərazisidir. Oğlum ilk sevgisini də burada tapıb. Bu gözəl oğlan da o sevginin barıdır, nəvəmdir. Qeyri-təvazökarlıq olmasın, Azərbaycanın, eləcə də xarici ölkələrin ən məşhur istirahət mərkəzlərində dincəlmək imkanlarım var. Ancaq sevirəm də buranı. Bir il bura gəlməsəm ölərəm. Allahın Azərbaycana bəxş elədiyi 9 iqlimdən biri - subtropik iqlim buradadır. 3-4 gün kifayətdir ki, o iqlimi tam təsəvvür edəsən. Mavi Xəzərimiz, hər yerdə gözəl su mənbələri. Bir tərəfdən meşədən gələn dağ havası, o biri tərəfdən isə dəniz havası. Təbiətin verdiyi bu əvəzsiz nemətlər istirahətin effektini daha da artırır.*



## "Hər il Almaniyada yaşayan nəvələrim də bura istirahətə gəlir"

**Ümumi kimya və toksikoloji kimya kafedrasının professoru Əhliman Süleymanov:** *Ailəmlə birlikdə ardıcıl olaraq 15 ildir ki, burada istirahət edirəm. Övladlarım burada böyüyüb. Demək olar ki, indi də nəvələrim burada böyüyürlər. Hətta Almaniyada yaşayan qızım da hər il öz uşaqlarını götürüb istirahət üçün bura gəlir. İstirahətimiz mənalı keçir. Hər il müəyyən yeniliklərin də şahidi oluruq. Yeməkxanadakı müsbət dəyişiklikləri xüsusilə qeyd etmək istərdim. Aşpazlar çox keyfiyyətli, ləzzətli xörək hazırlayırlar. Xanımlar əlavə xörək hazırlamaq qayğısından azaddırlar. İdman meydançaları genişləndirilib, təzə avadanlıqla təchiz olunub. İdman yarışlarına münsif kimi müəllim və professorlar dəvət olunurlar.*

**Ümumi gigiyena kafedrasının dosenti Elmira Abasova:** *1998-ci ildən hər il "Təbib" istirahət düşərgəsinə gəlirik. Nəvəm burada böyüyüb. Dostları ilə birlikdə müsabiqələrdə iştirak edir. Bura Nabranın ən gözəl guşəsidir, dənizlə meşənin qovuşduğu bir yerdir. Hamı bir-birini tanıyır, bu ərazi kiçik bir kəndi xatırladır. Uşaqlar da, böyüklər də hər yay bura gəlməyi səbirsizliklə gözləyirlər. Otaqlar həm xaricdən, həm də daxildən rənglənib. Yeni çarpayılar alınıb. 3 dəfə qidalanma rejiminə keçilib. Bir sözlə, əməkdaşlarımızın mənalı istirahəti üçün yaradılan şəraitdən çox razıyıq və bu rahatlığı yaradanlara minnətdarıq.*

**İctimai fənlər kafedrasının dosenti Yavər Vəliyev:** *Hörmətli rektorumuz əməkdaşlara göstərilən sosial qayğını həmişə diqqət mərkəzində saxlayır. Bunun nəticəsidir ki, Nabranın ən gözəl guşələrinin birində istirahət edirik. Burada çox gözəl əhval-ruhiyyə vardır. Cahangir müəllim tez-tez düşərgəyə baş çəkir,*

*əməkdaşların necə istirahət etmələri ilə maraqlanır. Elə bunun özü düşərgə sakinlərinə göstərilən diqqət və qayğının göstəricisidir. Ümumiyyətlə, qayğı çox yüksəkdir. Sakinlər arasında səmimiyyət, mehribançılıq hökm sürür. Sanki hamı eyni bir ailənin üzvüdür. Azər müəllim də sağ olsun, uşaqların təhlükəsizliyini yüksək səviyyədə qoruyur.*





# İSTİRAHƏTİN ÜNVANI - «TƏBİB»

### «Atıcılıq yarışını da idman növləri sırasına daxil etmişik»

Sakinlərin adını tez-tez çəkdikləri bədən tərbiyəsi və idman kafedrasının müəllimi, düşərgənin təlimatçı-xilasedicisi **Azər Bağırov** burada təşkil olunan idman yarışlarından həvəslə söhbət açır:

*- Universitet əməkdaşlarının istirahəti üçün lazımi şərait yaratmağa çalışırıq. Hər il etdiyimiz yeniliklərlə insanları cəlb edirik. Birinci mərhələdə 40-a yaxın uşaq yarışlara qatılmışdı. Yarışa qatılan uşaqlarla həm dəniz sahilində, həm düşərgənin ərazisindəki idman meydançasında iməcilik həyata keçirdik.*



*İdman yarışları əsasən domino, şahmat, dama, güllə atıcılığı və üzgüçülük idman növü üzrə idi. Domino yarışına təxminən 25-ə qədər uşaq qatılmışdı. Birinci yerə Xəyal Hidayətzadə, 2-ci yerə Emil Quluzadə, 3-cü yerə isə Ziya Bünyadzadə layiq görüldü. 30-dan çox uşağın qatıldığı dama yarışında 1-ci yerə Emil Quluzadə, 2-ci yerə Həmid Rzazadə, 3-cü yerə Fərid İsmayılov çıxdı.*

*Müharibə şəraitində yaşadığımız bir dövrdə uşaqların böyük marağına səbəb ola biləcəyini nəzərə alıb bu ildən xüsusi önəm verdiyimiz güllə atıcılığı yarışında 1-ci yerə Elton Əliyev, 2-ci yerə Samir Əliquliyev, 3-cü yerə isə Cəmil Cəfərov layiq görüldü. Deməli, bizim uşaqların arasında da sərrast atıcılar yetişməkdədir ki, onlara gələcəkdə torpaqlarımızın müdafiəsini tam şəkildə etibar etmək olar.*

*Hesab edirəm ki, belə yarışların keçirilməsi çox zəruridir və yeniyetmələr arasında böyük maraq yaradır.*

*Ümumi fiziki hazırlıq yarışı 5 mərhələdən ibarətdir ki, buraya da qaçış, idman nərdivanında əllərlə yerimək, turnikdə dartınmaq, yerdə qolların açılıb-bükülməsini həyata keçirmək və ayaqları paralel vəziyyətdə saxlamaq daxildir. Bu da idmançıdan böyük bir iradə, cəsarət tələb edir. Birinci yerə layiq görülən Samir Əliquliyev turnikdə 16 dəfə dartındı, idman nərdivanında 14 dəfə gedib qayıtdı və ayaqlarını paralel vəziyyətdə 35 dəqiqə saxladı ki, bu da V sinif şagirdi üçün yaxşı nəticədir. 2-ci yeri Rəşad Ağazadə, 3-cü yeri Fərid İsmayılov tutdu.*



*Şahmat yarışına 25-ə qədər uşaq qatılmışdı. 1-ci yerə Eltun Əliyev, 2-ci yerə Məhəmmədəli Əliyev, 3-cü yerə Samir Əliquliyev layiq görüldü. Samir bütün yarışlarda öz bacarığını nümayiş etdirirdi. Düşünürəm ki, belə perspektivli uşaqlara həmişə böyük ehtiyacımız var və onların əsl idmançı kimi yetişmələri üçün üzərlərində ardıcıl işləmək lazımdır.*

*Üzgüçülüyün əhəmiyyətini nəzərə alaraq idmanın bu növünü də daim diqqətdə saxlayırıq. Biz dənizdə ipla məsafə müəyyən edir, yarışanların qarşısında məqsəd qoyuruq ki, bu məsafəni üzməlidirlər. Onlar çalışırlar ki, qarşılarına qoyulan məqsədə nail olaraq normativi ödəsinlər. 27 nəfərdən normativ götürüldü, 9 nəfər də üzməyi öyrəndi.*

*İkinci növbədə də çox uşaq qatılıb yarışlara. Həm böyüklər, həm də kiçiklər arasında ən böyük maraq atıcılıq yarışına oldu. Bu yarışda 50-yə qədər iştirakçı vardı. Mükafatlar da müəyyən edildi. Kiçiklər arasında birinci yerə Ceyhun Məmmədli, 2-ci yerə Anar Əzimzadə, 3-cü yerə isə Nigar Əlizadə layiq görüldülər. Nigar yarışın ən kiçik yaşlı iştirakçısıdır və sərrast atıcı olmağa layiq bir qızdır. Böyüklər arasında 1-ci yerə Cəlal Məlikov, 2-ci yerə Tərlan Əliyev, 3-cü yerə isə Cavid Ağazadə çıxdı. Dünən (avqustun 3-də) domino yarışını başa çatdırdıq. Gərgin mübarizə getdi və qaliblər müəyyənləşdi. Xəyal Hidayətzadə 1-ci, Mehin İsayeva 2-ci, Vüqar Əsmətov 3-cü yerə layiq görüldülər. Dama yarışının da püşkü atılıb.*

*Uşaqlar günlərini çox mənalı keçirərək futbol, voleybol oynayırlar. Azərbaycanın futbol klublarına da azarkeşlik edirik.*

*Dənizdə uşaqların təhlükəsizliyini qorumaq məqsədi ilə 2 sahə yaratmışıq: 1-ci və 2-ci sahə. 2-ci sahənin girəcəyində şarlar yerləşdirmişik, ondan o yana üzüb keçən olmasın. Çalışırıq ki, bu qaydalara hamı riayət eləsin.*

Öz fikirlərini bizimlə bölüşən ictimai fənlər kafedrasının dosenti Məhəmməd Paşayev, laborant Mehparə Əliyeva, universitetimizin əməkdaşı Fatma Əliyeva, Onkoloji Klinikanın baş tibb bacısı Kəmalə Zülfüqarova, həyat yoldaşı Azad Zülfüqarov, ictimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının professoru Vaqif Vəkilov və başqaları burada yaradılan rahat şəraitdən, onlara göstərilən diqqət və qayğıdan razılıqla söhbət açdılar.



Digər həmsöhbətlərimiz də istirahətlərindən, asudə vaxtlarının səmərəli keçməsindən böyük həvəslə danışır, onlara bu şəraiti yaradanlara minnətdarlıq etməyi də unutmurlar.

### "Yeməklərin keyfiyyətindən hamı razıdır"

**Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının tədris hissə müdiri, baş müəllim Arif Kosayev:** *Artıq neçə illərdir "Təbib" istirahət düşərgəsində dincəlirəm. Əvvəllər bura övladlarımla gəlirdim, indi 4 nəvəmlə gəlirəm. Təəssüratım çox yüksəkdir. Hər il bura gələndə hansısa yeniliyin, dəyişikliyin şahidi oluram. Ərazidəki səliqə-səhman göz oxşayır. Verilən qidanın keyfiyyətindən hamı razıdır. Bu il heç kəs əlavə yemək hazırlamır. Bu da həm xanımlarımızın, həm də bizim rahatlığımızdır ki, əlavə bazarlıq etmirik. Düşərgədə xidmət göstərən insanların böyük qayğısını hiss edirik. Bu da Malik müəllimin uğurlu fəaliyyətinin nəticəsidir. Bakının istisindən qaçıb gəlmişik ki, il boyu gərgin zehni əməkdən sonra yaranan yorğunluğumuzu çıxaraq. Əməkdaşlarına göstərdikləri diqqətə, qayğıya görə hörmətli rektorumuz akademik Əhliman Əmiraslanova, Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımova öz adımdan, ailəmiz adından minnətdarlığımı çatdırıram.*

**Farmakologiya kafedrasının professoru Vəli Əsmətov:** *Azərbaycan Tibb Universiteti bizim üçün müqəddəs bir yerdir. Bu adla bağlı olan hər şey bizə əzizdir. "Təbib" istirahət güşərgəsi də ilk növbədə universitetimizə məxsus olduğuna görə dəyərlidir. Artıq 5-6 gündür ki, burada dincəlirik. Tam qayğı ilə əhatə olunmuşuq. Hətta Həmkarlar İttifaqı Komitəsinin sədri mənə zəng edərək necə istirahət etməyimizlə maraqlanıb. İstirahət çox düzgün qurulub. Yaşlı insanlar və uşaqlar üçün əlverişli şərait yaradılıb. Qidalanma normallaşıb. Hətta qidalanma kaprizinə malik olan adamlar da qorxmadan,*

(davamı səh. 8-də)

# Varikozun ən müasir müalicə metodları Azərbaycanda



**Hazırda damar və venaların xroniki xəstəlikləri dünyada ən çox yayılmış xəstəliklər sırasındadır. Bunlar arasında daha çox varikozun adı çəkilir. Bu xəstəliklərin yaranma səbəbi, profilaktikası, müayinə və müalicəsi haqqında Azərbaycan Tibb Universitetinin (ATU) professoru, tibb elmləri doktoru, Dünya və Avropa Damar Cərrahları Assosiasiyasının üzvü Məhəmməd Kərimov danışıb.**

**- Bir millimetrlik sahə düşünək. Bu sahə Varikoz xəstəliyi doğrudanmı dünyada çox yayılıb? Bu xəstəliyin ən çox hansı növünə rast gəlinir və səbəbi nədir?**

- Dünya üzrə statistikaya görə, hazırda əhalinin 40-50 faizi varikozdan əziyyət çəkir. Aşağı ətrafların (ayaqların) venalarının, yəni dərialtı səthinin venalarının varikoz genişlənməsi daha çox yayılıb. Əgər varikozun başlanğıc formasını (kiçik damarların genişlənməsini) də bura əlavə etsək, demək olar ki, varikoz xəstəliyi az qala əhalinin 70-80 faizini əhatə edir. Azərbaycanda varikozu artıq "xalq xəstəliyi" adlandırırlar.

Beynəlxalq araşdırmaların nəticələrinə görə, varikoz xəstəliklərinə qadınlar arasında daha çox rast gəlinir. Statistikaya fikir versək, qadınlar arasında varikoz 35-50 faiz, kişilər arasında 25-35 faiz civarında rast gəlinir. Səbəbi odur ki, qadınlar varikoza meylli olurlar. Əgər qadın hamiləlik keçirərsə, bu, aşağı venozlara əlavə ağırlıq verir və varikozun yaranma ehtimalı daha da artır. Əgər qadın bir dəfə hamilə olarsa 40 faiz, üç dəfə hamiləlik keçirərsə, varikozun yaranma ehtimalı 360 faiz olur.

Varikozun yaranmasında üçüncü önəmli amil - birləşdirici toxuma sisteminin anadangəlmə zəifliyi sindromudur. İnsan orqanizmində iki skelet var: sümük skeleti və ona birləşik toxumadan ibarət olan skelet. İkinci skeletimiz bizim həyatımız üçün çox önəmli rol oynayır. Və bu toxuma bütün orqanlarda var, xüsusilə damarların divarında. Əgər bu sistemdə anadangəlmə zəiflik varsa, onda varikozun yaranma ehtimalı daha çox olur. Anadangəlmə varikoz olan qadınların anası, xalası və yaxud digər qohumunda bu xəstəlik olur. Yəni, bu, həm də irsi xəstəlikdir.

**- Belə çıxır, varikoz əsasən anadangəlmə faktorlarla əlaqəlidir?**

- Yox, digər amillər həyatda rast gəlinən faktorlardır. Məsələn, oturaq həyat, saatlarla ayaqüstə durmaq, ağır fiziki işlə məşğul olmaq, yük qaldırmaq və s. davranışlar da varikozun əmələ gəlməsində böyük rol oynayır. Bunlardan başqa, piylənmə, ağır çəki, xroniki kolitlər, qəbzlik də varikoz yaradan əsas faktorlardandır.

Varikoz xəstəliyinin daha çox C2 və C3 variantlarına rast gəlinir. Yəni, əsasən diametri 3 mm-dən böyük olan damarların genişlənməsi ilə bizə daha çox müraciətlər olunur. Varikoz xroniki gedişə malik xəstəlikdir, uzun illər da-



vam edir. Əsasən yay aylarında qadınlarda ağrılar artır, soyuq aylarda isə azalır.

Varikozun daha çox rast gəlinən fəsadları arasında bunları saymaq olar: trombozlar, kəskin tromboz, tromboflebit . qanaxmalar, trofiki dəyişikliklərin və trofiki qanaxmaların baş verməsi. Bizə müraciət edən xəstələrin əksəriyyətində varikozun bu və ya digər fəsadı müşahidə olunur. Trafkiyaları olan xəstələrdə yaralar uzun illərlə sağalmır. Və onların sağalması demək olar ki, qeyri-mümkündür.

**- Varikozun müalicəsində hansı yeniliklər tətbiq edilir?**

- Son 15 ili varikozun müalicəsində inqilabi bir dövr adlandırmaq olar. Əvvəllər varikoz adi metodlarla müalicə olunurdu, bu da çox saylı kəsiklərlə müşayiət olunurdu, əmliyyatlardan sonra xəstənin ayağında izlər qalırdı.

Lakin indiki dövr lazerlə müalicə (EVLA – Endovenoz Lazer Ablasiyası) dövrüdür. Yəni, damar daxilinə bu və digər kimyəvi vasitəni daxil etməklə, damarları çıxarmadan müəyyən müddət ərzində varikozun aradan götürülməsinə nail oluruq. EVLA proseduraı varikoz xəstəliyinin ən son müalicə metodu olub, damar divarına daxildən lazer enerjisi ilə təsir etməklə, onun bağlanmasına əsaslanır.

Lazer müalicəsinin üstünlükləri kəsiksiz, ağrısız, qansız, yerli anesteziya ( "keyitmə" ) ilə icra olunmasıdır. Digər tərəfdən, proseduradan dərhal sonra pasient ayağa duraraq sərbəst gəzir.

Endovenoz lazer koaqulyasiyası və yaxud varikozun lazer müalicəsi son vaxtlar çox köklü dəyişiliklərə məruz qalıb. Son illər ərzində yeni növ lazer - suya təsir edən lazer və yeni lazer ötürücüsü - radial ötürücü kəşf edilib. Yeni növ lazer şüalarının təsirindən damar divarının kollagen lifləri zədələnir və onun bütün qatları bir növ əriyərək çapıq toxuması ilə əvəz olunur. Bu, ilk nəsil lazerlərdən - hemoqlobin lazerindən əsaslı şəkildə fərqlənir, damar daxilində tromb yaratmır. Bu səbəbdən prosedurada tromboembolik fəsadların yaranma ehtimali sıfıra bərabərdir, yəni demək olar ki, tam təhlükəsizdir. Beləliklə, bu müalicədən sonra biz içərisi trombla dolmuş vena yox, çapıqlaşmış vena görürük.

**- Hazırda Azərbaycanda belə əməliyyatlar icra olunurmu?**

-Fəxrlə qeyd etmək istərdim ki, yeni innovasion texnologiyanın həyatda özünə çox çətinliklə yol açmasına baxmayaraq, biz buna maksimum qısa müddətdə - 3 ay ərzində nail olduq. Artıq Azərbaycanda "üçüncü nəsil" adlan-



dırılan son lazerlə uğurlu əməliyyatlar aparmışıq.

Təəssüf ki, hələlik Azərbaycanda aparılan əməliyyatların yalnız 1 faizi lazerlədir, yerdə qalan hallarda klassik - flebektomiya üsulundan istifadə olunur. Halbuki, dünyada göstəricilər tam əksinədir. Təəssüf ki, bu, həkimlərimizin yeni texnologiyaları öyrənməyə az meyl göstərməsi ilə əlaqədardır.

**- Endovenoz üsulla aparılan əməliyyatlardan sonra xəstədə yenidən varikoz əmələ gəlmə ehtimalı varmı?**

- Klassik üsulla aparılmış əməliyyatdan sonra bu risk 15-20%, lazer müalicəsindən sonra isə 1-2 %-dir. Bu da bir daha lazer müalicəsinin üstünlüyünü vurğulayır. Biz xəstələri 1 il müşahidə edirik, kiminsə çətinlik yaşadığını görməməişik.

Qeyd edim ki, varikoz xəstəliyinin müasir müalicə metodları arasında Radiodalğalı ablasiya (RDA) adını çəkmək olar. Bu üsul radiodalğalar vasitəsi ilə genişlənmiş damara təsir etməklə onun yığılmasına və sorulub itməsinə əsaslanır. Digər üsul - miniflebektomiya – dəridə kəsik aparmadan, kicik dəliklərdən xüsusi alətlər vasitəsi ilə varikoz venaların çıxarılmasıdır. Mikrodəliklər steril striplər (steril plastrlar) vasitəsi ilə örtülür. Qısa müddətdən sonra dəliklər iz buraxmadan tamimilə sağalır.

Skleroterapiya - damar daxilinə xüsusi preparatın (sklerozantın) yeridilməsi ilə onun sorularaq aradan qaldırılmasıdır. Bu metod daha çox dəridaxili retikulyar venaların və damar ulduzcuqlarının (teleangioektaziyaların ) müalicəsində istifadə olunur.

**- Məhəmməd müəllim, ayaqlarında varikoz damarları olan insanlara nə tövsiyə etmək olar?**

- Dərhal fleboloq və ya damar cərrahına müraciət etmək lazımdır. Gündəlik həyatda isə uzun müddət ayaqüstə və ya oturaq vəziyyətdən imtina etmək, hündür dabanlı ayaqqabı geyməmək lazımdır. Fleboloqlar 5 smdən hündr dabanlı ayaqqabı geyməyi məsləhət görmürlər.

Həmçinin, hansısa isidici prosedurlardan (müxtəlif növ fizioterapiyalar) uzaq olmaq, isti vanna və saunadan istifadə etməmək məsləhətdir. Kompression corablardan istifadə etmək, uzanarkən ayaqların altına yastıq qoyaraq qaldırmaq və müalicə tədbirlərinə mümkün qədər tez başlamaq lazımdır. Bu tip problemi olan hamilə qalmaq istəyən xanımlar mütləq fleboloqa müraciət etməli, onun məsləhətlərindən sonra hamilə qalmalıdırlar.

**Günel ASLANOVA**

# Tarif (qiymət) Şurasının növbəti iclasında daha 801 dərman vasitəsinin qiyməti təsdiq edilib



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi prosesi davam etdirilir. Məlumat verildiyi kimi, Tarif (qiymət) Şurasının bu il iyulun 30-da keçirilmiş iclasında 256 dərman vasitəsi üzrə qiymətlər təsdiq olunub.**

Tarif (qiymət) Şurasının avqustun 25-də keçirilən növbəti iclasında isə daha 801 dərman vasitəsinin qiyməti müəyyənləşdirilib.

Şuranın Katibliyindən AZƏRTAC-a bildirilib ki, ümumilikdə, elan olunmuş 25 təsiredici maddə üzrə 1057 dərman vasitəsinin qiymətləri tənzimlənib. Bunun nəticəsində hazırda satışda olan dərman vasitələrinin qiymətləri ilə müqayisədə 46 faiz dərman vasitəsinin qiyməti 2 dəfədən çox, 24 faiz dərman vasitəsinin qiyməti 3 dəfədən çox ucuzlaşdırılıb. Bütövlükdə isə, həmin tərkib üzrə satışda olan dərman vasitələrinin 94 faizi üzrə qiymətlər aşağı salınıb.

Bununla da, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin təqribən 15 faizinin hazırkı qiymətlərlə müqayisədə əhəmiyyətli dərəcədə aşağı olan satış qiymətləri təsdiqlənib. Böyük sosial əhəmiyyət kəsb edən bu proses bütün dərman vasitələrinin qiymətləri tənzimlənənədək intensiv şəkildə davam etdiriləcək və bu ilin sonunadək əksər dərman vasitələri üzrə qiymətlərin tənzimlənməsi başa çatdırılacaq.

Əvvəllər də elan edildiyi kimi, 25 təsiredici maddə (kombinə olunmuş dərman vasitələri istisna olmaqla) üzrə 1057 dərman vasitəsinin təsdiq edilmiş qiymətləri bu il sentyabrın 15-dən qüvvəyə minəcək. Şuranın qərarına əsasən, həmin tarixdən etibarən qiymətləri təsdiq edilməyən qeyd olunan tərkibli dərman vasitələrinin satışı yalnız qiymətlər təsdiq edildikdən sonra həyata keçirilə bilər.

İclasda daha 55 yeni təsiredici maddə üzrə dərman vasitələrinin qiymətlərinin təsdiqlənməsi üçün sənədlərin (bəyannamələrin) qəbulu elan olunub və bunun üçün son müddət bu il sentyabrın 10-dək müəyyən edilib.

Tarif (qiymət) Şurasının qərarları və qiymətləri tənzimlənmiş dərman vasitələrinin siyahısı ilə Şuranın rəsmi internet səhifəsində (www.tariff.gov.az) və AZƏRTAC-ın saytında http://azertag.az/ tanış ola bilərsiniz.

# Ö.Akıncı: «Ən vacibi xəstəyə zaman qazandırmaqdır»

**◆ Azərbaycan Tibb Universitetinin çoxprofilli Tədris Terapevtik Klinikası qonşu dövlətlərin nüfuzlu xəstəxanaları ilə əlaqələrini daim genişləndirir. Təbabətin ən aktual problemlərinə aid fikir mübadiləsi aparılır, tanınmış mütəxəssislərin mühazirələri dinlənilir, canlı telekörpü vasitəsilə ağır xəstələrin vəziyyəti müzakirə edilir və çıxış yolları axtarılır. Xüsusi ehtiyac yarananda isə aparıcı mütəxəssislər klinikaya dəvət olunurlar.**



Artıq ənənəyə çevrilən belə dəvətlər zamanı daha çox türkiyəli mütəxəssislərə üstünlük verilməsi də təbiidir. Biz bu dəvətləri zəruri edən əsas məqamları həmişə diqqətdə saxladığımızdan İstanbul Universitetinin İstanbul Tibb Fakültəsinin professoru, reanimatoloq İbrahim Özcan Akıncının klinikaya dəvət olunması xəbərini eşidəndə də onunla görüşmək qərarına gəldik. Məlum oldu ki, klinikanın həkim-reanimatoloqu Emil Qasımov rəhbərliklə məsləhətləşərək Türkiyədə təhsil aldığı universitetin professorunu klinikaya dəvət edib.

Yeri gəlmişkən qeyd edək ki, Tədris Terapevtik Klinikanın Reanimasiya və intensiv terapiya şöbəsi klinikanın ən vacib bölmələrindən biridir. Bu şöbədə onlarla ağır xəstənin şəfa tapması Klinikanı ölkəmizin reanimatoloji xidməti ən yüksək səviyyədə olan xəstəxanaları sırasında ön plana çıxarmışdır. Şöbəyə həyati vacib funksiyaları dayanmış, kəskin pozulmuş və ya pozulması gözlənilən xəstələr yerləşdirilir, onlara 24 saat ərzində xidmət göstərilir. Şöbədə 25 funksional çarpayı var ki, bunların da 7-si uşaqlar üçün nəzərdə tutulub. Hər çarpayının başında ən müasir tənəffüs aparatı cihazı və monitorlar yerləşdirib.

Şöbənin defibrilyatorlar, portativ rentgen aparatı, infuzomatlar, perfuzorlar və s. müasir tibbi avadanlıqlarla da təchiz edildiyini deyən şöbə müdiri, dosent Əliyar Sultanov bildirdi ki, kəskin ürək, tənəffüs, böyrək, qaraciyər çatışmazlığı olan xəstələr intensiv terapiyaya cəlb edilir, ağır vəziyyətdən çıxarılaraq klinikanın müvafiq şöbələrinə köçürülürlər.

Peşəkar tibbi personalın çalışdığı şöbənin sanitar-gigiyenik vəziyyəti yüksək səviyyədədir. Burada yatan xəstələrə günün hər saatında bütün laboratoriya testlərinin və instrumental müayinələrin aparılması üçün şərait yaradılıb.



İstanbul Universitetinin İstanbul Tibb Fakültəsinin professoru İbrahim Özcan Akıncının klinikaya dəvət olunmasında da məqsəd onun şöbənin işinə dair tövsiyyələrini, məsləhətlərini dinləmək, reanimasiya xidmətini daha da təkmilləşdirməkdən ibarət olub.

Reanimasiya və intensiv terapiya şöbəsi, bütövlükdə klinika haqqında ilk təəssüratının müsbət olduğunu vurğulayan professor İbrahim Özkan Akıncı müalicə alan xəstələrin xəstəlik tarixçələrini nəzərdən keçirərək ümumi müalicə taktikası və strategiyasının doğru, müasir olduğunu söylədi. Şöbənin ən ağır xəstəsi G.Fərəcovanın müalicəsi ilə bağlı öz tövsiyyələrini də verərək xəstənin mexanik ventilyatordan ayrılması üçün maye balansının daha neqativdə saxlanılmasını, eləcə də bronx dilatatoru ilə müalicənin gücləndirilməsi, antibiotik terapiya, ən son nəsil antimitotik dərmanlardan biri olan caspofungin molekulunun əlavə olunmasını məsləhət gördü. Professor İbrahim Özcan Akıncı bizə bildirdi ki, ümumiyyətlə, bu cür xəstələr başqa xəstəxanalarda itirilir. Ən vacibi xəstəyə zaman qazandırmaq, ağ ciyər və bronxlardakı problemləri çözüb rahatlamaqdır. Məsləhətləşmələr zamanı bu qənaətə gəlindi ki, xəstənin həyatda qalma şansı var. Orqanizmi möhkəmləndirdikdən sonra şüur durumunu anlamlı cavablar və işarətlərlə bərpa etmək zərurəti ortaya çıxacaq.

Türkiyəli professor klinikanın direktoru, professor Surxay Musayevlə də görüşərək xəstənin sağlamlıq durumu barədə qısa məlumat verdi.

İlk növbədə dəvətlərini qəbul etdiyinə görə professor İbrahim Özkana təşəkkürünü çatdıran professor S.Musayev rəhbərlik etdiyi klinikanın ölkə başçısı cənab İlham Əliyevin 11 sentyabr 2007-ci il tarixli Sərəncamı əsasında inşa edilən, tədris, elmi-tədqiqat, müalicə və diaqnostika işlərini özündə birləşdirən unikal bir universitet klinikası olduğunu dedi. Qeyd etdi ki, 2007-ci il sentyabr ayının 18-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın iştirakı ilə ümumi sahəsi 25000 m2 olan, 15 mərtəbəli, 400 çarpayılıq çoxprofilli klinikanın təməlqoyma mərasimi keçirilib, 2010-cu il oktyabrın 1-də açılışı olub.

Sovet dönəmində universitetin bütün kafedralarının şəhər klinikalarında yerləşdiyini, baş həkimlərin səhiyyə bakanlığına, kafedra müdirlərinin isə rektora tabe olduğunu söyləyən S.Musayev o zamanlar anormal bir vəziyyətin yarandığını xatırlatdı: "Hörmətli rektorumuz akademik Əhliman Əmiraslanov uzun illər Moskvada çalışmış onkoloqdur. O, 1992-ci ildən bu məsələləri səlahiyyətli qurumlar qarşısında dəfələrlə qaldıraraq bildirirdi ki, universitetin klinikaları yaradılmalı, proqramlar dəyişdirilməlidir. 1998-ci ildə Azərbaycan Respublikasının prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Tibb Universitetinə gəlmişdi. Bu məsələ yenidən qaldırılanda Heydər Əliyev dedi ki, ölkənin maddi durumu hələlik yeni klinikaların inşasını reallaşdırmağa yetərli deyil, vəsaitimiz yoxdur. Nəhayət, 2000-ci ildə ulu öndər Heydər Əliyevin xeyir-duası ilə universitetin ilk klinikası – Stomotoloji klinika, daha sonra Onkoloji klinika yaradıldı. Beləliklə, universitet klinikalarının yaradılması istiqamətində görülən işlər intensivləşdi. Cənab İlham Əliyevin prezidentliyi dövründə Tədris Terapevtik Klinikadan sonra 500 çarpayılıq Tədris Cərrahiyyə Klinikası da istifadəyə verildi".

Universitetdə kadr hazırlığının mövcud vəziyyətinə də toxunan professor S.Musayev bildirdi ki, 4 ildir rezidentura sisteminə keçərək mütəxəssis hazırlığının türk modelini seçmişik, yönümüz Türkiyəyədir. 1990-cı illərdən bəri tələbələrimiz Türkiyədə uzmanlıq təhsili almağa başlayıblar və onların səviyyəsindən olduqca razıyıq. Təsadüfi deyil ki, universitet klinikalarında həmin kadrlar heç bir maneəsiz işlə təmin olunurlar.

Görüş zamanı qarşılıqlı əlaqələrin bundan sonra da uğurla davam edəcəyinə əminlik ifadə olundu, xəstələrin şəfa tapması üçün ortaq bilgilərin və təcrübənin əhəmiyyəti vurğulandı.

**A.KAMRANOĞLU**

# Təhlükəli qidalar ölüm yayır

**◆ Dünyada hər il təxminən 2 milyon insanın, xüsusilə uşaqların ölümü təhlükəli qidalarla bağlıdır.**




"lenta.ru" saytının yaydığı xəbərə görə ərzaq məhsullarının tərkibində olan patogen bakteriya, virus, parazit və ya kimyəvi maddələr ishaldan tutmuş xərçəngə qədər 200-dən çox xəstəliyə səbəb olur.

Qida məhsulları üçün daim yeni təhlükələr var. Ərzaq məhsullarının istehsal texnologiyasında, bölüşdürülməsi və istehlakı, eləcə də ətraf mühitdə baş verən dəyişikliklər, mikroblara müqavimət və digər bu kimi amillər hər bir ölkənin milli qida təhlükəsizliyi sistemi üçün problemlər yaradır. Bununla yanaşı, beynəlxalq ticarət əlaqələrinin genişlənməsi təhlükəli məhsulların yayılması ehtimalını artırır.

Dünya Səhiyyə Təşkilatı bildirir ki, istifadə edilən qida məhsullarının təchizatı mənbələri getdikcə qloballaşdığından, bütün ölkələrdə ərzaq təhlükəsizliyi sistemlərini gücləndirmək lazımdır. Bu səbəbdən, Dünya Səhiyyə Təşkilatı qida təhlükəsizliyinin möhkəmləndirilməsinə, o cümlədən qida ilə ötürülən xəstəliklərin yayılmasının qarşısını almağa çalışır. Eyni zamanda, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) da beynəlxalq informasiya şəbəkəsi vasitəsilə ərzaq təhlükəsizliyi sahəsində fövqəladə hadisələr haqqında bütün ölkələri xəbərdar edir.

Qida təhlükəsizliyi ortaq bir məsuliyyətdir. Ərzaq istehsalı zəncirində hamı təhlükəsizlik qaydalarını gözləməlidir. Bu qaydalara fermerlər və istehsalçılar, eləcə də satıcılar və istehlakçılar ciddi əməl etməlidirlər.

# Azərbaycan onkoloqları Soçidə süd vəzisi xərçənginin diaqnostikasında problemləri müzakirə edəcəklər

**Sentyabrın 3-dən 5-dək Soçidə Rusiya Onkomammaloqlar Cəmiyyətinin ikinci «Süd vəzi xərçənginin diaqnostikasında və müalicəsində innovasiyalar» adlı illik konqresi keçiriləcək. Tədbirdə Rusiyanın 50 regionunun, eləcə də Azərbaycan, ABŞ, Finlandiya, Ukrayna, Belarus, Qazaxıstan və Özbəkistanın onkoloqları iştirak edəcəklər.**



AZƏRTAC xəbər verir ki, 500-dən çox mütəxəssis süd vəzisi xərçənginin müalicəsi və diaqnostikasında problemləri, eləcə də ən son nailiyyətləri müzakirə edəcəklər. Konqres çərçivəsində məruzə müsabiqəsinin keçirilməsi planlaşdırılıb. Həmçinin onkoloji müəssisələrin baş həkimlərinin, şüa terapevtlərinin, mammaloqların, radioloqların və digər mütəxəssislərin iştirakı ilə "dəyirmi masa"lar təşkil olunacaq.

"Dünya alimləri və onkoloqları bədxassəli şişlərin müalicəsinin ən səmərəli sxemini axtarırlar. Bu sahədə cərrahiyyə texnikası ildən-ilə təkmilləşir, dərman və şüa terapiyasında yeni yanaşmalar müəyyənləşir, onkoloji xəstəliklərin diaqnostikasında yeni üsullar yaradılır.

Biz əminik ki, konqresdə onkoloqlar təcrübələrini bölüşəcək, öz bilik və bacarıqlarını daha da zənginləşdirəcəklər",- deyə Rusiyanın "Birgə xərçəng əleyhinə" Fondunun icraçı direktoru Katerina Yarova bildirib.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

### Kafedraların professorları (elmlər doktorları):

- II cərrahi xəstəliklər kafedrası - 1 yer
- İnsan anatomiyası kafedrası -1 yer (0,25 vahid)

### Kafedraların dosentləri (fəlsəfə doktorları):

- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0,75 vahid )
- Ümumi cərrahiyyə və anesteziologiya kafedrası - 1 yer
- II MPF-nin daxili xəstəliklər kafedrası -1 yer
- Neonatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer
- Oftalmologiya kafedrası - 1 yer (0,75 vahid )
- I daxili xəstəliklər və reanimatologiya kafedrası - 1 yer
- Neyrocərrahlıq kafedrası - 1 yer
- Tibbi fizika və informatika kafedrası - 1 yer
- Fizioterapiya və idman təbabəti kafedrası - 1 yer
- II uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II uşaq xəstəlikləri kafedrası nəzdində «İmmunologiya» kursu - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Latın dili kafedrası - 1 yer

### Kafedraların baş müəllimləri:

- Histologiya, embriologiya və sitologiya kafedrası - 1 yer
- Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrası - 1 yer

### Kafedraların assistentləri:

- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- II cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Müalicə profilaktika, pediatriya fakültələri üçün stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Nevrologiya və tibbi genetika kafedrası - 1 yer (0,5 vahid)
- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0,25 vahid)
- Onkologiya kafedrası - 1 yer
- Kliniki farmakologiya kafedrası - 1 yer (0,5 vahid)
- Məhkəmə təbabəti kafedrası - 1 yer
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- Neyrocərrahlıq kafedrası - 1 yer
- Tibbi fizika və informatika kafedrası - 1 yer (0,5 vahid)
- II mamalıq və ginekologiya kafedrası - 1 yer (0,25 vahid)
- II MPF-nin daxili xəstəliklər kafedrası - 1 yer
- II MPF-nin daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- II MPF-nin daxili xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer
- Psixiatriya kafedrası - 1 yer
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Histologiya, embriologiya və sitologiya kafedrası - 1 yer
- Neonatologiya kafedrası - 1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,75 vahid)

### Kafedranın müəllimləri:

- Xarici dilər kafedrası - 3 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 31 avqust 2015-ci il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir: Bakı şəhəri- Az 1022, Bakıxanov küçəsi 23. Telefon: 597-43-23**

# MƏNALI İSTİRAHƏTİN ÜNVANI - «TƏBİB»

(əvvəli səh. 4-5-də)



*çakinmədən qidalana bilərlər. İdman yarışlarının keçirilməsi uşaqların hərbi vətənpərvərlik və idman ruhunda tərbiyəsinə çox böyük bir töhfə verir. Cahangir müəllimdən düşərgəyə birbaşa nəzarət edən şəxs kimi çox razıyam. Malik müəllimə də minnətdaram ki, gündə bir neçə dəfə bizə yaxınlaşaraq ümumi vəziyyətlə maraqlanır. Buranın bir özəlliyi, gözəlliyi də budur ki, bütün sakinlər doğma kollektivin üzvləridir.*

### "Yeni, müasir standarlara uyğun bir istirahət kompleksinin inşası nəzərdə tutulub"

Xoş təsadüf nəticəsində ezamiyyətimiz Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun düşərgəyə gəlişi ilə eyni vaxta düşmüşdür. Cahangir müəllim bütün korpusları bir-bir gəzərək istirahətçilərlə hal-əhval tutdu, əməkdaşların hər birinə universitetimizin rektoru, akademik Əhliman Əmiraslanovun salamlarını çatdırdı. Burada dincələnlərlə səmimi ünsiyyət quran C.Qasımov onların arzu və təkliflərini dinlədi, bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi apardı. Düşərgənin səliqə-səhmanına diqqət yetirən komitə sədri ərzaq saxlanılan anbarın, xörəklərin hazırlandığı ümumi mətbəxin vəziyyətini yoxladı, təsərrüfat işçilərinə, düşərgəyə birbaşa cavabdeh olan şəxslərə lazımi tapşırıqları verdi. Komitə sədri sakinlərlə görüşündə qeyd etdi ki, gərgin zehni əməklə məşğul olan əməkdaşlarımızın istirahəti həmişə olduğu kimi, bundan sonra da universitet rəhbərliyinin daim diqqət mərkəzində duran ən ümdə vəzifələrdən biridir: "Fürsətdən istifadə edib akademik Əhliman Əmiraslanova təşəkkür edirəm ki, o öz nüfuzundan istifadə edərək bu düşərgəni əməkdaşlarımız üçün qoruyub saxlaya bildi. Gələcəkdə hörmətli rektorumuzun təşəbbüsü ilə burada yeni, müasir standarlara uyğun bir istirahət kompleksinin inşası nəzərdə tutulub".



Cahangir müəllim daha konfort şərait üçün yol vərəqələrinin qiymətini artırmağı təklif edən sakinlərə hələ bu haqda düşünmədiklərini dedi. Bildirdi ki, 2-3 ildən bir çox cüzi qiymət artımı ola bilər. Nə qədər çətin olsa da, biz hər hansı dəyişikliyi, yeniliyi daxili imkanlarımız hesabına həyata keçirməyə çalışacağıq. Xörəklərin çeşidini artırmaq üçün gələn mövsümdə əlavə işçi götürüləcəyini deyən komitə sədri 2017-ci ildən etibarən hamının ümumi yeməkxanadan istifadə edəcəyini də söylədi.

### "İstirahət mərkəzi üç növbəli iş rejimi ilə işləyir"

Nəhayət, bütün işini-gücünü düşərgənin təmizliyinə, təmirinə, əməkdaşların rahatlığına və mədəni kütləvi tədbirlərin keçirilməsinə həsr edən Düşərgənin rəisi **Malik Əbülhəsənovu** dinləyirik:

*- Hər il olduğu kimi bu il də akademik Ə.Əmiraslanovun göstərişi ilə burada mövsümə hazırlıq işləri aparılıb. Otaqlar təmir olunub, divarlar rənglənib. Kommunikasiya xətləri yenilənib, ərazi məişət tullantılarından təmizlənib, həyətyanı ərazi, binalar mövsümə qədər bir neçə dəfə dərmanlanıbdır. Yeməyin keyfiyyətinə də özüm nəzarət edirəm. Yeməkxananın müdiri Xətai Novruzov öz işinin öhdəsindən layiqincə gələn gənclərimizdəndir. Düşərgədə istirahət edənlər X.Novruzovun fəaliyyətindən və aşpazlardan Xanım Ağazadə və Nazilə Quliyevanın bişirdiyi dadlı yeməklərin keyfiyyətindən razılıq edirlər.*

*Hər mərhələnin əvvəli Universitet Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov əraziyə baş çəkir, sakinlərlə söhbət aparır. Çatışmazlıqları vaxtında aradan qaldırmaq üçün tövsiyələrini verir. Siz özünüz də bunun şahidi oldunuz. İstirahət mərkəzi 3 növbəli iş rejimi ilə işləyir.*

*Çimərlikdə də təmizlik işləri aparılıb, soyunub-geyinmə yerləri quraşdırılıb. Dənizdə çimən istirahətçilərin təhlükəsizliyi nəzarətdə saxlanılır. Xilasedicimiz Azər müəllim bu işi yüksək səviyyədə həyata keçirir. Səhər saat 10-dan 11-ə, axşam isə saat 17-dən 19-dək dəniz saatıdır. Hava küləkli olanda çimmək qadağan olunur. Hər gecə saat 10-dan 12-dək uşaqlar diskotekada şənlənirlər.*

*Qida məhsullarının təzəliyinə və keyfiyyətinə xüsusi fikir veririk. Müqavilə əsasında süd alırıq. İstirahətçilərə yeməkdən əlavə gündə 2 dəfə süd verilir. Sakinlərin asayişi qorunur, sakitliyə əməl olunur. Ümumiyyətlə, məqsədimiz budur ki, hər il istirahətin keyfiyyəti əvvəlki illərlə müqayisədə xeyli yüksəlsin.*

İşimizi yekunlaşdıraraq özlərini düşərgədə tam rahat hiss edən, illərlə bir-birlərinə qaynayıb qarışmış tanış simalardan ayrılırıq. Onları quşların cəhcəhi, cırcıramaların nəğməsi, Xəzərin sahili döyən sakit ləpələri ilə baş-başa qoyaraq Bakıya qayıdırıq. Ruhumuza qeyri-ixtiyari bir rahatlıq hopur. Ona görə rahatıq ki, öz işinin öhdəsindən layiqincə gələn məsuliyyətli kadrların sayəsində "Təbib" istirahət düşərgəsinə üz tutanlar öz ürəklərincə istirahət edə biləcəklər.

**Arif MƏMMƏDLİ,**
**Qabil Abdullayev,**
**Fotolar Cənnətalı ÇİNGİZİNDİR**

### Etibarsız sayılır

Abdurəhmanova Firuzə Yusif qızına 2002-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin STKS fakültəsinin III kurs, 304[a] qrup tələbəsi Orucova Lamiyyə Suliddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 258